QURBAN SƏİD

Əli və Nino

Almancadan tərcümə:
Mirzə Xəzər

Müsəlman azərbaycanlı Əli Xan Şirvanşir və xristian gürcü Nino Kipiani müxtəlif dinlərə, mədəniyyətlərə və dünyagörüşlərinə sahib gənclər olmalarına rəğmən bir-birini sevirlər. Onların sevgisi həm fərdi, həm də milli kimlik, Şərq və Qərb qarşıdurması fonunda inkişaf edir. Əsər yalnız romantik bir hekayə deyil. O, mədəniyyətlərarası dialoq, milliyyətçilik, azadlıq və varlıq mübarizəsi kimi dərin mövzuları da özündə birləşdirir.

Əsərdəki hadisələr XX əsrin əvvəllərində — Rusiya imperiyasının süqutu, Birinci Dünya Müharibəsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründə Bakıda baş verir.

Bu kitab dünyanın və Azərbaycanın ən məşhur əsərlərindən biridir. Dünyanın 39 dilinə tərcümə olunub və 67 ölkədə nəşr edilib. Roman ilk dəfə 1937-ci ilə Avstriyada - Vyanada nəşr olunmuşdur.

Əsərin müəllifinin kimliyi dünya üzrə böyük elmi araşdırmalara və müzakirələrə səbəb olmuşdur.

“Əli və Nino” Nəşriyyatı
Bakı, AZ 1005, Z.Tağıyev küç., 19
Tel.: (+994 12) 493-04-12
e-mail: info@alinino.az
www.alinino.az

Qurban Səid ƏLİ VƏ NİNO
Bakı, “Əli və Nino” Nəşriyyatı, 2025, 288 səh.

Almancadan tərcümə: Mirzə Xəzər
Korrektor: Elsevər Muradov
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Yekaterina Klimova

ISBN 978-9952-26-652-8

© “Əli və Nino” Nəşriyyatı, 2025
© Kurban Said, 1937

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
“Əli və Nino” Nəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”
Azərbaycan Respublikasının qanununa ziddir.

I

Bakıdakı rus gimnaziyasının üçüncü sinfində biz qırx şagird idik: otuz nəfər müsəlman, dörd erməni, iki polyak, üç sektant və bir nəfər rus. Ehtiramla, sakitcə oturub professor Saninin şəhərimizin qeyri-adi coğrafi vəziyyəti barədə dediklərinə diqqətlə qulaq asırdıq.

"Avropa qitəsinin təbii sərhədləri şimalda Şimal Buzlu okeanından, qərbdə Atlantik okeanından və cənubda Aralıq dənizindən keçir. Avropanın şərq hüdudları rus imperiyasının içərisindən keçərək Ural boyunca aşağı enir. Xəzər dənizini ikiyə bölür və Zaqafqaziyadan keçib gedir. Bax, bu məsələdə elm hələ son sözünü deməmişdir. Məsələn, bəzi alimlər Qafqaz dağlarının cənubundakı ərazini Avropaya daxil edirlər, başqaları isə belə fikirdədirlər ki, bu ərazi də, xüsusilə mədəni cəhətdən inkişaf etdiyi üçün Avropaya aid edilməlidir. Balalarım! Şəhərimizin qabaqcıl Avropaya, yaxud geridə qalmış Asiyaya aid olduğunu müəyyən etmək sizin mövqeyinizdən asılıdır".

Rus gimnaziya müəllimlərinin qızılla bəzənmiş uniformasını geyən professor özündən razı halda gülümsündü. Sual

o qədər çətin, məsuliyyətin yükü də elə ağır idi ki, nəfəsimiz təngləşdi. Sonra ən dal cərgədə oturan Məhəmməd Heydər əlini qaldırıb dedi:

"Bağışlayın, cənab professor, biz Asiyada qalmaq istəyirik". Bərk bir qəhqəhə qopdu. Məhəmməd Heydər ikinci dəfə idi ki, üçüncü sinfin partasında otururdu və Bakı Asiyaya aid olduqca, onun üçüncü il də eyni sinifdə qalması üçün hər cür ehtimal var idi. Nazirliyin bir qərarına əsasən, Rusiyanın Asiya qismindəki yerli şagirdlərlə eyni sinifdə kefləri istədikləri qədər qalmaq icazəsi verilirdi. Professor Sanin alnını qırışdırıb: "Deməli belə, Məhəmməd Heydər, sən Asiyada qalmaq istəyirsən? Bir çıx qabağa. Bəs öz fikrini əsaslandıra bilərsənmi?"

Məhəmməd Heydər qabağa çıxdı. Qıpqırmızı olmuşdu. Dinməz-söyləməz dayanmışdı. Onun ağzı açıq, alnı qırışmış, baxışları isə mənasız və axmaqsayağı idi. Dörd erməni, iki polyak, üç sektant və bir rus onun axmaqlığından həzz aldıqları bir anda, mən əlimi qaldırıb bəyan etdim ki, "cənab professor, mən də istəyirdim Asiyada qalım".

"Əli xan Şirvanşir! Sən də! Yaxşı, çıx qabağa".

Professor Sanin alt dodağını qabağa uzadıb, onu Xəzər dənizinin sahillərinə gətirib tullayan bəxtinə daxilində lənət oxuyurdu. Sonra öskürüb ağır tərzdə dedi: "Heç olmasa, sən öz fikrini müdafiə edə bilərsənmi?"

"Bəli. Mən özümü Asiyada lap yaxşı hiss edirəm".

"Belə, belə. Bəs sən, heç olmasa, bircə dəfə əsl vəhşi bir Asiya ölkəsində, misal üçün, Tehranda olmusan?"

"Bəli, keçən yay".

"Aha! Bəs orada Avropa mədəniyyətinin böyük nailiyyətlərini, məsələn, avtomobili gördünmü?"

“Bəli, özü də lap böyüyünü. Otuz nəfərlik və daha böyüyünü görmüşəm. Onlar şəhərin içində deyil, bir məntəqədən o biri məntəqəyə işləyirlər”.

“Dediyin avtobuslardır və onlardan dəmir yolu çatmadığı üçün istifadə olunur. Buna gerilik deyərlər. Otur yerinə, Şirvanşir!”

Sinifdəki bütün asiyalılar sevinir, baxışları ilə mənə “əhsən” deyirdilər.

Professor Sanin dilxor halda susdu. Onun vəzifəsi öz şagirdlərindən əsl avropalılar yetişdirmək idi.

“Bəs sizlərdən kim, məsələn, Berlində olub?” – deyə o, birdən-birə sual verdi.

O gün Saninin bədbəxt, uğursuz günü idi: sektant Maykov əlini qaldırdı və bildirdi ki, lap balaca vaxtında Berlində olub. Boğanaq və qorxunc bir metronu, gurultulu qatarı və anasının onun üçün səliqə ilə hazırladığı qaxac edilmiş donuz əti ilə çörəyi yaxşı xatırlayırdı.

Biz otuz müsəlman dərindən qəzəblənmişdik. Seyid Mustafa isə hətta icazə istədi ki, eşiyə çıxsın. Çünki donuz əti sözünü eşidən kimi onun ürəyi bulanmağa başlamışdı. Bununla da Bakı şəhərinin haraya aid olması məsələsinə dair diskussiya birdəfəlik həll olundu.

Zəng çalındı. Professor Saninin ürəyi yüngülləşdi və o, sinfi tərk etdi. Biz qırx nəfər şagird də tələsik bayıra çıxdıq. Bu, böyük tənəffüs idi və hər kəsin üç imkanı var idi: həyətə qaçıb qonşuluqdakı realnı gimnaziyasının şagirdlərini, qızılı düymə və qızılı kokardlarından ötrü döymək idi, çünki bizim düymə və kokardlarımız gümüşü idi.

İkinci imkan, bir-birimizlə bərkdən tatarca (azərbaycanca) danışmaq idi, çünki ruslar bu dili başa düşmürdülər və bir də

ki, məktəbdə bu dildə danışmaq qadağan idi. Üçüncü imkan da tələsik küçənin o tayına – müqəddəs kraliça Tamaranın qız gimnaziyasına getmək idi. Mən axırıncını seçdim.

Qızlar mavi uniforma-donlar və ağ döşlük geyib bağçada gəzişirdilər. Xalaqızı Ayşə mənə əl elədi. O, Nino Kipiani ilə əl-ələ verib gəzişirdi. Nino Kipiani isə dünyanın ən qəşəng qızı idi. Mən coğrafiya dərsindəki döyüşlərimdən qızlara danışanda, dünyanın ən gözəl qızı dünyanın ən gözəl burnunu qırışdırıb dedi: "Əli xan, sən axmaqsan. Allaha şükür ki, biz Avropadayıq. Əgər Asiyada olsaydıq, mən gərək çoxdan çadra örtəydim, sən də mənim üzümü heç görməzdin".

Mən məğlub olduğumu boynuma aldım. Bakı şəhərinin mübahisəli coğrafi vəziyyəti məni dünyanın ən gözəl gözlərindən məhrum etdi.

Qəmginləşib qalan dərslərə daha getmədim. Mən şəhərin küçələrini gəzib dəvələrə, dənizə baxdım. Avropanı, Asiyanı və Ninonun gözəl gözlərini yada salıb fikrə daldım və kədərləndim. Eybəcər sir-sifəti olan bir dilənçi qabağıma çıxdı. Ona pul verdim. O, əlimi öpmək istədi. Qorxub əllərimi çəkdim. Amma sonra düz iki saat şəhəri ələk-vələk elədim, dilənçini axtardım ki, o, əlimi öpə bilsin. Elə fikirdə idim ki, onu təhqir etmişəm. Vicdan əzabı çəkirdim. Ancaq onu tapa bilmədim.

Bu əhvalatın üstündən beş il keçdi.

Bu beş ildə cürbəcür şeylər baş verdi. Bizə təzə direktor göndərdilər. Onun da ən çox zövq aldığı şey yaxamızdan yapışıb bizi silkələmək idi, çünki gimnaziyaçılara şillə vurmaq qəti qadağan idi.

Elə həmin beş il ərzində şəriət müəllimimiz bizə müsəlman adı altında dünyaya gəlmək imkanı verdiyi üçün Allahın nə

qədər mərhəmətli olduğunu dəqiq izah etdi. Sinfə iki erməni və bir rus da gəldi, iki müsəlman da məktəbi tərk etdi: biri on altı yaşında evləndi, o biri də məktəb tətili zamanı qan davasına qurban getdi. Mən, Əli xan Şirvanşir də bu beş il ərzində üç dəfə Kislovodskda, bir dəfə İrandakı əmilərimdən birinin yanında oldum. Bir dəfə də gerindium ilə gerindivumu ayıra bilmədiyim üçün az qala sinifdə qalmışdım. Atam gedib məsciddə molla ilə danışdı və o bildirdi ki, bütün latın dili başdan-başa səhvdir. Bunu eşidən atam bütün türk, İran və rus ordenlərini taxıb direktorun yanına getdi, məktəbə nə isə bir fizika cihazı bağışladı və mən sinifdən-sinfə keçdim. Məktəbin divarlarından da yeni elan asıldı ki, məktəb binasına içi dolu tapança ilə girmək qadağandır. Nəhayət, həmin beş il içərisində şəhərdə telefon xətti çəkildi, iki yeni kinoteatr açıldı. Nino Kipiani isə hələ də dünyanın ən gözəl qızı idi. İndi də hər şey qurtarmalı idi: imtahanlardan məni yalnız bir həftə ayırırdı və mən evdə, otağımda oturub, Xəzər dənizi sahillərində latın dili dərsinin mənasız olduğu barədə düşünürdüm.

Otağım evimizin ikinci mərtəbəsində yerləşən ən gözəl otaq idi. Buxara, İsfahan və Kəşandan gətirilmiş tünd rəngli xalçalar divarları bürüyürdü. Xalça üstündəki naxışlar – bağça və göllər meşə və çaylar toxucunun təsəvvüründə necə yaranmışdısa, elə də görünürdü – səriştəsizlər üçün görünməz, peşəkarlar üçün isə valehedici idi o naxışlar.

Uzaq səhralardakı köçəri tayfaların qadınları yabanı kolluqlar içərisindən bu rənglər üçün bitkilər yığmış, nazik barmaqlar da onlardan şirə sıxıb çıxartmışlar. Bu gözəl rənglərin sirri yüz illər qədər qədimdir. Bir də ki, öz sənət

əsərini tam qurtarmaq üçün toxucu çox vaxt on il əmək sərf edirdi. Sonra da ov və cəngavər döyüşləri səhnəsini təsvir edən büsbütün sirli rəmzlər və işarələr, qıraqlarında da Firdovsinin bir şeri, yaxud Sədinin bir müdrik kəlamı olan bu sənət əsərini divardan asırdılar. Çoxlu xalça asıldığı üçün otaq qaranlıq görünürdü. Otaqda alçaq bir divan, sədəflə işlənmiş kətil, bir çox yumşaq balış və bunların hamısının içərisində mənasız kitablar, Qərb elminin kitabları – kimya, latın, fizika, triqonometriya kitabları. Sarsaq əşyalar və barbarlıqlarını pərdələmək üçün barbarlar tərəfindən kəşf edilən əşyalar.

Kitabları şappıltı ilə bağladım, otağımdan çıxdım. Dar şüşəbənddən keçib evin yastı damına çıxdım. Oradan mən öz dünyamı seyr etdim: İçərişəhərin qalın qala divarlarını, girişində ərəbcə yazılar olan sarayın xarabalıqlarını gözdən keçirtdim. Küçənin dolanbaclarından asta-asta dəvələr keçirdi. Onların buxovları elə incə idi ki, adam istəyirdi tumarlasın. Kobud, yumru Qız qalası qalxdı gözümün qabağında. Qız qalasının ətrafında bələdçilər dolaşırdı. Bir az aralıda, Qız qalasının arxasında dəniz başlayırdı – qurğuşuna bənzər, anlaşılmaz Xəzər dənizi. Onun arxasında da səhra yerləşirdi – zəhmli qayalar, qum və tikan: dinc, sakit, güc çatmayan, dünyanın ən gözəl mənzərəsi.

Mən sakitcə damda oturmuşdum. Nəyimə lazımdır mənim özgə şəhərlər, özgə damlar və özgə mənzərələr. Mən düz dənizi və düz səhranı, onların arasında yerləşən bu qədim şəhəri sevirdim. Buraya neft axtarmağa gələn səs-küylü bəşəriyyət səhranı sevmədiyi üçün varlanandan sonra çıxıb gedirdi.

Nökər çay gətirdi. Çayı içə-içə buraxılış imtahanlarını fikirləşirdim. İmtahanlardan heç nigarançılığım yox idi.